BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Ermənistan Konstitusiya Məhkəməsinin 26 sentyabr tarixli qərarında mövcud ziddiyyətlər və bununla bağlı erməni ekspertlərin rəyi


Fuad Abdullayev

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az



OKTYABR 2024

## Ermənistanın Konstitusiya Məhkəməsinin qərarı

### Giriş

Ermənistanın daxili qanunvericiliyində və Konstitusiyasında Azərbaycan və Türkiyənin beynəlxalq səviyyədə, həmçinin Ermənistanın özü tərəfindən də rəsmi olaraq tanınmış suveren ərazilərinə iddiaların mövcud olması bugünkü gündə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına maneə olaraq qalmağa davam edir. Azərbaycanın haqlı və əsaslı tələbləri qarşısında çarəsiz qalan Ermənistan hakimiyyəti isə hər dəfə qeyri-ciddi və əsassız maneələr yaradaraq sülh müqaviləsinin imzalanmasını uzatmağa çalışır. 26 sentyabr 2024-cü il tarixində ölkənin Konstitusiya Məhkəməsinin Konstitusiyaya zidd olan qərarını da məhz bu rakursdan qiymətləndirmək lazımdır. Qeyd etmək lazımdır ki, Ermənistan növbəti dəfə beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmiş addım atmağa çalışıb. Heç şübhəsiz, qərarın əsas amalı Ermənistanı sülhsevər, Azərbaycanı isə qeyri-konstruktiv mövqedə olduğunu göstərməkdir. Lakin qeyd etmək lazımdır ki, qərar silahlanmaq üçün vaxt qazanmağa hesablanmışdır. Belə ki, Ermənistanın özünü müdafiə bəhanəsi adı altında mütəmadi olaraq silahlanması və son zamanlar tamamilə hücum xarakteri daşıyan silah və hərbi texnikaya maraq göstərməsi, həmçinin hərbi xərclərini artırması onun sülh müqaviləsini bağlamaq niyyətini əks etdirmir.

**Ermənistan Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlət sərhədinin delimitasiyası üzrə komissiyalarının birgə fəaliyyəti haqqında Əsasnamənin Konstitusiyaya uyğunluğuna dair qərarı:**

- **Bu qərar birgə Əsasnamənin Ermənistan Konstitusiyasına uyğunluğunu müəyyən etsə də, Konstitusiyanın bəzi maddələri ilə ziddiyyət təşkil edir;**
- **Konstitusiyanın preambulasında yer alan Müstəqillik Bəyannaməsinə verilən şərhlər natamam və səthi xarakter daşıyır;**
- **Qərarın qəbulunun başlıca məqsədlərindən biri Azərbaycanın qeyri-konstruktiv mövqedə olduğunu və sülh müqaviləsini bağlamaq istəmədiyini göstərməkdir.**

Ermənistanın Konstitusiya Məhkəməsi (bundan sonra Məhkəmə) 26 sentyabr 2024-cü il tarixli SDO-1749 saylı qərarı ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası dövlət sərhədinin delimitasiyası üzrə komissiyalarının (bundan sonra Komissiya) birgə fəaliyyəti haqqında Əsasnamənin Konstitusiyaya uyğunluğu haqqında qərar qəbul edib. Həmin qərarla, həmçinin Konstitusiyanın preambulasında

yer alan Müstəqillik Bəyannaməsinin Ermənistan ərazilərinin müəyyən edilməsində Konstitusiyaya təsiri şərh olunub. Məlum olub ki, qərarın 2-ci maddəsində şərhin aparılmasının səbəbləri, 3-cü maddədə isə Bəyannamənin Konstitusiyaya uyğunluğu izah edilib. 2-ci maddədə aşağıdakı səbəblər gətirilib:

- Ermənistanın Müstəqillik Bəyannaməsində yer alan "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli birgə qərarının Konstitusiyanın məzmununa mümkün təsirini müəyyən etmək;
- Ermənistan ərazilərinin müəyyən edilməsinin əsasında duran prinsipi aydınlaşdırmaq və 1991-ci il Alma-Ata Bəyannaməsində yer alan sərhədlər anlayışının Konstitusiyaya uyğunluğunu müəyyən etmək.

Qeyd edək ki, Müstəqillik Bəyannaməsinin şərh edilməsi zamanı Məhkəmə tərəfindən **qarşılıqlı müqayisə metodundan** istifadə olunub. Belə ki, 1995-ci il Konstitusiyası və Müstəqillik Bəyannaməsində olan bəzi maddələr müqayisə olunub. Nəticədə belə bir qərar qəbul olunub ki, Konstitusiyanın preambulasında yer alan "Bəyannamədə qeyd olunan erməni dövlətçiliyinin əsas prinsipləri və milli məqsədləri" bəndi 1995-ci il Konstitusiyasının bəzi maddələri ilə uyğunsuzluq təşkil edir. Dolayısı ilə bu, **Ermənistanın əsas prinsip və ya məqsədlərinə aid edilə bilməz**. Məhkəmə qərarının 3.7-ci maddəsi bu şəkildə qeyd edilir: "Gələcəkdə 2-ci maddədə qeyd edilən məsələlərin (yəni ərazilərin müəyyən edilməsi) həlli üçün Bəyannamədə təsbit olunmuş "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1989-cu il 1 dekabr tarixli birgə qərarı əsasında "Ermənistan SSR-in və Dağlıq Qarabağın yenidən birləşdirilməsi haqqında" müddəası ilə bağlı qənaət ləğv edilir.[1]

## Ermənistanın Konstitusiya hüququ üzrə ekspertlərinin qərarla bağlı rəyləri

Konstitusiya Məhkəməsinin bu qərarına **ən doğru münasibəti** hazırda Konstitusiya Məhkəməsinin hakimi olan, eyni zamanda həmin Məhkəmənin keçmiş sədri və Ermənistanın sabiq ədliyyə naziri **Hrayr Tovmasyan** göstərib. H.Tovmasyanın qərarla bağlı verdiyi rəsmi rəy Məhkəmənin rəsmi səhifəsində də yerləşdirilib. Qeyd edək ki, qərarın qəbulu zamanı **Tovmasyan səs verməyib**. H.Tovmasyanın rəyində deyilir: "Konstitusiya Məhkəməsinin bu iş üzrə ərizəni qəbul etmək və bu ərizə əsasında

[1] https://concourt.am/decisions/cc-decision/

mahiyyəti üzrə qərar qəbul etmək səlahiyyəti olmayıb. Lakin bununla belə ərizəni qəbul edib, ona baxıb və icraatı həyata keçirib. Nəticədə Konstitusiya Məhkəməsi SDO-1749 saylı qərarında Konstitusiyanın qiymətləndirilməsi və Əsasnamədə nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi metodologiyası ilə bağlı **bir sıra əhəmiyyətli pozuntulara yol verib.** Bu isə həm Konstitusiyanın, həm də “Konstitusiya Məhkəməsi haqqında” Konstitusiya qanununun pozulmasına gətirib çıxarıb. O, eyni zamanda qeyd edib ki, Məhkəmə, qərarın qəbulu zamanı Konstitusiya nöqteyi-nəzərindən fundamental əhəmiyyət kəsb edən mühüm məsələlərdən açıq-aydın yayınıb. Xüsusilə Ermənistanın Müstəqillik Bəyannaməsi baxımından birgə əsasnamədə nəzərdə tutulan öhdəlikləri qiymətləndirərkən Konstitusiyanın bir sıra əsas normativ müddəalarına məhəl qoyulmayıb”.

H.Tovmasyanın rəyinin incələnməsi nəticəsində belə qənaətə gəlmək olar ki, ziddiyyətlə bağlı əsas arqument Məhkəmə qərarının **Konstitusiyanın 205-ci maddəsinə** (Ermənistan Respublikasının beynəlxalq təşkilatlara üzvlük məsələlərinə dair referendumlar və Ermənistan Respublikasının ərazisində dəyişikliklər) uyğun olmamasıdır.[2] Belə ki, qərar razılaşdırılmış bəzi ərazilərin yurisdiksiyanın faktiki ötürülməsini nəzərdə tutur. Bu isə Ermənistan qanunvericiliyinə görə **yalnız referendum yolu ilə** edilə bilər.

Hüquq elmləri doktoru, Konstitusiya hüququ üzə mütəxəssis **Artur Ğambaryan** öz Facebook səhifəsində qərara etiraz olaraq qeyd edib ki, **Müstəqillik Bəyannaməsi hüquqi cəhətdən dəyişməz sənəddir** və Konstitusiyadan asılı deyil.[3] Bu fikrini o, Konstitusiya Məhkəməsinin keçmiş sədri Qaqik Harutyunyanın şərhləri ilə əsaslandırıb. Belə ki, Ğambaryan Bəyannamənin qəbul edilməsinin 20-ci ildönümü münasibətilə keçirilən tədbir zamanı Q.Harutyunyanın qeyd etdiyi: “Müstəqillik Bəyannaməsi Ermənistan Konstitusiyasının tərkib hissəsidir” – sözlərini öz səhifəsində paylaşıb. Eyni zamanda, A.Ğambaryan 2020-ci ildə elmi məqalələrinin birində bununla bağlı bir neçə tezis də yazıb. Tezislərin birində qeyd olunur ki, **Bəyannamə Konstitusiyadan daha üstün sənəddir**, Konstitusiyanın mənbəyidir və yaradılmasının əsasıdır.[4]

Hüquqşünas **Aram Orbelyan** isə qeyd edib ki, 1990-cı ildə Konstitusiya komissiyası yaradılıb. Komissiyada aparılan müzakirələrdən sonra belə qərara gəlinib ki, **bəyannamədə nəzərdə tutulan milli məqsədlərin Konstitusiyaya daxil edilməsi**

---

2 https://concourt.am/decisions/cc-decision/
3 https://www.facebook.com/artur.ghambaryan.1
4 https://www.pastinfo.am/hy/news/2024/02/05/mt3yxbtpb/1709974?fbclid

**zəruridir.** Lakin yaradılan Konstitusiyanın mətnini qəlizləşdirməmək üçün hüquqi vasitədən istifadə olunub. Beləliklə, bəyannamədə yer alan milli məqsədlər **istinad metodu ilə Konstitusiyaya daxil edilib.** Bununla yanaşı o, vurğulayıb ki, milli məqsədlərə istinad faktı özü göstərir ki, Konstitusiyanı tərtib edən şəxslər müəyyən normaların Konstitusiyada və Bəyannamədə fərqli ola biləcəyi ehtimalını nəzərə alıb.

Konstitusiya hüququ üzrə mütəxəssis **Vardan Poğosyan** da A.Orbelyanın fikrinə oxşar mövqe bildirib. V.Poğosyan qeyd edib ki, Konstitusiyanı yaradanların nə o vaxt, nə də sonralar milli məqsədləri Konstitusiyanın ayrı-ayrı maddələrində cəmləşdirmək məqsədi olmayıb. Onlar bu barədə fikirləşiblər və belə qənaətə gəliblər ki, preambulada Bəyannaməyə istinad edilsə, kifayət edər.[5]

## Ermənistan müxalifətinin qərarla bağlı fikirləri

1995-ci il Konstitusiyasının qəbulunda yaxından iştirak edən Erməni Milli Konqresinin üzvləri Aram Manukyan və Levon Zurabyan da məsələyə münasibət bildirərək, qərarın Konstitusiyaya zidd olduğunu vurğulayıblar.

**Aram Manukyan** Ermənistan mətbuatına verdiyi açıqlamada qeyd edib ki, **Konstitusiya Məhkəməsinin belə qərar qəbul etmək hüququ yoxdur**, çünki sərhədin ən azı 1 mm dəyişdirilməsi nəzərdə tutulubsa, o zaman bu dəyişiklik Konstitusiyaya uyğun olaraq, referendum prosedurundan keçməlidir. Bu qərarın mətni sərhədin dəyişməsi ehtimalını nəzərdə tutub. Buna görə də Konstitusiya Məhkəməsi Ermənistan və Azərbaycanın referendum keçirmədən sərhədləri dəyişdirə biləcəyi sənədinə müsbət rəy verməklə, Əsas Qanunu pozub. O vurğulayıb ki, delimitasiya zamanı, təbii olaraq, kommunikasiyaların keçməsi, su anbarlarına çıxış və s. maraqlar əsasında sərhəd xəttinin dəyişdirilməsi məsələləri müzakirə oluna bilər, lakin bütün bu dəyişikliklər mütləq referendum prosedurundan keçməlidir.[6] A.Manukyan onu da əlavə edib ki, **Konstitusiya Məhkəməsi öz tələsinə düşüb**. Məsələ burasındadır ki, 2021-ci il aprelin 29-da iqtidar partiyası öz maraqlarına əsaslanaraq, Konstitusiya

[5] https://www.civilnet.am/news/800325/%D5%B4%D5%A1%D5%B5%D6%80-%D6%85%D6%80%D5%A5%D5%B6%D6%84%D5%B6-%D5%B8%D6%82-%D5%A1%D5%B6%D5%AF%D5%A1%D5%AD%D5%B8%D6%82%D5%A9%D5%B5%D5%A1%D5%B6-%D5%B0%D5%BC%D5%B9%D5%A1%D5%AF%D5%A1%D5%A3%D5%AB%D6%80%D5%A8-%D5%BD%D5%A4-%D5%B8%D6%80%D5%B8%D5%B7%D5%B4%D5%A1%D5%B6-%D5%B7%D5%B8%D6%82%D6%80%D5%BB-%D5%BA%D5%B6%D5%A4%D5%B8%D6%82%D5%B4%D5%B6%D5%A5%D6%80%D5%AB-%D5%B0%D5%A5%D5%BF%D6%84%D5%A5%D6%80%D5%B8%D5%BE/

[6] https://www.pastinfo.am/hy/news/2024/10/08/hlhpe02j4/1837630

Məhkəməsində SDO-1590 saylı qərar qəbul edib və bu qərarda **Konstitusiyanın preambulasının dəyişdirilməsi mümkün olmayan müddəa kimi tanınıb**.[7]

**Levon Zurabyan** da qərara eyni rakursdan münasibət bildirib. O, qeyd edib ki, qərarda çox mühüm bir bənd var, o da gələcəkdə müzakirə olunacaq sülh sazişində fərqli tənzimləmə nəzərdə tutulmasa, sərhədlərin 1991-ci il sərhədləri əsasında müəyyən edilməsi ilə bağlıdır. Bu isə o deməkdir ki, Ermənistan və Azərbaycan gələcək sülh müqaviləsində **1991-ci il sərhədlərini dəyişdirən fərqli bir şeylə razılaşa bilərlər.** Zurabyan bildirib ki, əgər belə tənzimləmə mümkündürsə o zaman ərazinin dəyişdirilməsi prosesi Konstitusiyanın 205-ci maddəsi ilə tənzimlənməlidir. Belə ki, həmin maddədə: “Ermənistan ərazisindəki dəyişikliklərlə bağlı məsələlər referendum yolu ilə həll olunur” – cümləsi qeyd olunub. Zurabyanın fikrincə, elə bir prinsip təklif olunur ki, qəbul olunsa, referendumsuz ərazi dəyişikliklərinə getmək mümkündür. Lakin Konstitusiya Məhkəməsi burada bütün hüquqi prinsipləri pozub və sanki bu iki qərarda ziddiyyət tapmayıb, amma əminəm ki, hər şeyi görən insanlar var.[8]

Nikol Paşinyanın xüsusi tapşırıqlar üzrə keçmiş səfiri **Edmon Marukyan** isə qeyd edib ki, bu qərar **Ermənistanın Qərbə yeni mesajıdır**. Ermənistan Qərbə demək istəyir ki, baxın, biz bu addımı atdıq, lakin Azərbaycan sülh sazişini imzalamır. E.Marukyan həmçinin qərarın **iki fundamental prinsipə** uyğun gəlmədiyi üçün müəyyən mənada Konstitusiyaya zidd olduğunu iddia edib. Bu, **dəqiqlik və mütənasiblik** prinsipləridir. Belə ki, qərarda bundan sonrakı prosesdə dəqiq olaraq hansı xəritələrlə və harada delimitasiyanın aparılacağına dair məlumat qeyd olunmur. Digər tərəfdən o, bunu da əlavə edib ki, Məhkəmənin qərarı 60-70 faiz Bəyannamənin şərhinə həsr olunub. Bu isə **məhkəmənin siyasi məsələlərə qarışması** deməkdir.[9]

“Daşnaksütyun” partiyasının nümayəndəsi, millət vəkili Artsvik Minasyanın açıqlamaları da maraq doğurub. O, qərarda verilən şərhlərin **insanları çaşdırmaq** məqsədi daşıdığını bildirib. Minasyan həmçinin Məhkəmə qərarının 3.2-ci maddəsinin “b” bəndində qeyd edilən şərhə toxunub və buna dair bəzi faktları açıb. O qeyd edib ki: “Qərarda ordu və daxili qoşunlar misal gətirilərək bildirilib ki, Müstəqillik Bəyannaməsində onlar Ali Şuraya tabedirlər, amma 1995-ci ilin Konstitusiyasına əsasən, həmin səlahiyyətlər prezidentə aiddir. Lakin Məhkəmə unudur ki, cəmi 1 ildən sonra (1991-ci il) xalqın iradəsini ifadə edən ali orqan kimi, həmin Ali Şura “Respublika Prezidenti haqqında” qərar qəbul edib və müdafiə,

[7] https://www.arlis.am/documentview.aspx?docid=152265
[8] https://www.youtube.com/watch?v=93WZbiuvUWg
[9] https://www.youtube.com/watch?v=iVGPL-DVRyc

təhlükəsizlik, silahlı qüvvələr və s. məsələləri onun səlahiyyətlərinə verib.[10] Yəni şərhdə qeyd edilən kimi burada heç bir ziddiyyət yoxdur. Habelə, qərarda **sərhədlərin optimallaşdırılmasına** imkan verildiyi bildirilir. Lakin optimallaşdırma ərazinin dəyişdirilməsi, sərhədin dəyişdirilməsi deməkdir ki, bu isə Konstitusiyaya görə, referendumun keçirilməsini tələb edir. Buna görə də Konstitusiya Məhkəməsi özü deməli idi ki, bu müddəa referendumla təsdiq edilməlidir, çünki parlament belə səlahiyyətlər verə bilməz. Parlamentin belə bir səlahiyyəti icra hakimiyyətinə vermək səlahiyyəti yoxdur."[11]

## Nəticə:

Nəticə olaraq belə qənaətə gəlmək olar ki, Ermənistanın Konstitusiya Məhkəməsinin 26 sentyabr qərarı Konstitusiyanın 205-ci maddəsi ilə müəyyən ziddiyyətlilik təşkil edir. Erməni mütəxəssislərin bu qərarı qeyri-qanuni adlandırdıqları zaman əsas arqumentinin məhz bu fakt olması isə təsadüfi deyil. Müstəqillik Bəyannaməsinin Konstitusiyaya uyğunluğu və bununla bağlı verilən şərhlər isə səthi aparılıb və burada sual doğuran bir çox məqam müşahidə olunub. Bu səbəbdən dövlət sərhədlərinin delimitasiya və demarkasiyası üzrə birgə Komissiyaların gələcək fəaliyyətinin, eyni zamanda bu şərtlərdə bağlanacaq sülh müqaviləsinin nəticəsinin gələcəkdə Ermənistanın daxili qanunvericiliyinə və Konsitusiyasına zidd qəbul olunma ehtimalı yüksəkdir. Belə ki, **Ermənistanda hakimiyyətin dəyişəcəyi təqdirdə** dövlət sərhədlərinin delimitasiyası prosesi nəticəsində əldə edilən və ediləcək nailiyyətlər, eyni zamanda Bəyannamə ilə bağlı verilən şərhlər qanuna zidd hesab edilərək ləğv oluna bilər.

**Müəllif: Fuad Abdullayev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**

[10] https://www.arlis.am/documentview.aspx?docid=85
[11] https://www.youtube.com/watch?v=UvsOMiwa6uU